**ƏRGƏNƏKON - TÜRKÜN ƏZƏLİ YURDA DÖNÜŞÜ**
**(Bir törənin tarixçəsi)**



**ƏRGƏNƏQON.** Göytürklər tatrlarla apardıqları savaşda məğlub oldular, hamı qırıldı, təkcə **İlxanın (Elxanın)** oğlanlarından **Qıyan** və **Noğuz** sağ qadılar.

Döyüşdən on gün sonra bir gecə atlarına mindilər, cocuqlarını yanlarına alaraq qaçdılar. Savaşdan əvvəl ordu qurduqları yerə gəldilər. Burada dəvə, at, öküz və qoyunları qalmışdı, onları da özləri ilə götürdülər. Qardaşlardan biri dedi:

-Burada qalsaq, bir gün düşmənlərimiz bizi tapar, ələ keçərik, hamımızı öldürərlər. Başqa bir boya yollansaq, yenə hər yanımız yağılarla doludu. Ən yaxşısı budur ki, dağların arasında, kimsələrin yolu düşməyəcək yerlərə gedib oralarda oturaq.

Buna qərar verdilər. Hamılıqla Qıyanın arxasınca getdilər. Sürülərini qabaqlarına qatıb dağlara qalxdılar.

Bir dişi **keyik görüb** arxasına düşdülər. Keyik bunları dağların üzərindəki düz bir yerə götürdü. Orada hər yeri yaxşı-yaxşı yoxladılar. Gəldikləri yoldan başqa yol yox idi. Bir az da irəlilədilər.

Geniş çəmənliyi olan bir ölkə gördülər. Burada axar sular, buz bulaqlar, cürbəcür meyvə ağacları və çoxsaylı heyvanlarla rastlaşıb sevindilər. Tanrıya şükürlər edib həmin təzə yurdda yerləşdilər. Qışda heyvan kəsib ətini yeyir, dərisini əyinlərinə keçirir, yazda isə südlərini içirdilər.

**Burada dörd yüz il qaldılar.** Törəyib çoxadılar. Sonra dedilər:

-Babalarımızdan eşitmişik ki, Ərgənəqonun kənarında geniş, gözəl yerlər varmış. Atalarımız orada otururmuşlar. Bundan sonra qorxub dağlarda qapanıb qalmaq bizə yaraşmaz. Gəlin bir yol tapıb Ərgənəqondan çıxaq.



Hamı qərara alır ki, bu yeri tərk edib dədə-baba yerlərinə qayıtsınlar. Yol aramağa başladılar, çox gəzib-dolaşdılar, hər tərəfdən qabaqlarını hündür dağlar kəsirdi. Aralarında bir nəfər dəmirçi **Bürtəçin** adlı birisi vardı. O, dedi:

-Mən bir yer gördüm, orada dəmir mədəni var. Əgər onu əritsək, yol taparıq.

Gedib o yeri gözdən keçirdilər, dəmirçinin sözünü doğru sandılar. Dəmir dağı əridib köhnə yurdlarına gedən yolu tapdılar...

Başqa məlumatda göstərilir ki, onlar bir gün dağın başında dişi qurdla rastlaşırlar. Qurdun Ərgənəqona necə gəlib çıxması ilə maraqlanırlar. Onu qovub arxasınca yollanırlar. Baxırlar ki, dağların arasındakı bir dəlikdən bayıra çıxış var. **Dəliyin ətrafına nəzər salanda görürlər ki, orada dəmir mədəni var.**



**-Ey türk milləti, uyuma! Torpağına sahib çıx!..**

Bu, çağırışı və göytürklərin törəyişini anladan "Ərgənəkon" qədim bir türk dastanının adıdır. Onun izlərinə Çin mənbələrində rastlaşırıq. Ulu əcdadlarımız söyləyirlərmiş ki, türklər bir zamanlar düşmən tərəfindən hiylə ilə yenildiklərindən böyük itki verərək doğma yurdlarını tərk etmək məcburiyyətində qalmış və Ərgənəkon ovalığına sığınmışlar. Uzun zaman keçəndən sonra yenidən yüksəlmiş, artıb çoxalmış, orduları dəniz kimi coşub dalğalanmış, onlar təkrar əski yurdlarına dönərək düşmənlə çarpışmış, ata-baba torpaqlarını geri almışlar.

Ətrafda türk oxu ötməyən, türk nizəsi batmayan, türk qılıncı kəsməyən, türk atının tapdağına çevrilməyən, türkə boyun əyməyən el yox idi. Bu durum yad tayfaları hiddətləndirib qısqanclıq xəstəliyinə salırdı.

Bir gün özgədillilər birləşib türklərin üzərinə yeridilər. Bunu görən türklər çadırlarını, sürülərini bir araya topladılar, çevrələri boyu xəndək qazıb gözlədilər. Düşmən çatar-çatmaz qılınclar qınından çıxdı. On gün gecə-gündüz savaşdılar. Axır türklər üstün gəldilər.

Məğlubiyyətə uğrayan düşmən qövmlərin xanları, bəyləri ov yerində toplanıb öz aralarında sözləşdilər. Dedilər ki: *«Türklərə qarşı hiyləyə əl atmasaq, halımız bir az da yamanlaşacaq».*

Dan ağaranda düşmənlər basqına başlayırmış kimi hərəkətə gəldilər, lakin hələ türklərin həmləsi ilə üzləşməmiş ağır yüklərini buraxıb qaçdılar. Türklər: *«Bunların gücü tükəndi, nə tez aradan çıxdılar»* - deyib atdan yerə endilər, silahlarını torpağa sancıb ələ keçirdikləri qənimətləri bölüşdürdülər.

Məkrli düşmən türklərin başının qatıldığını görüb qəflətən geri döndü. Əsl ölüm-dirim savaşı başladı. Düşmən silaha sarılmağa macal tapmayan türkləri öldürə-öldürə onların çadırlarına gəldi. Onlar evləri yıxıb taladılar, malları elə yağmaladılar ki, bir qara çadır belə salamat qalmadı. Böyüklərin hamısını qılıncdan keçirdilər, kiçikləri isə dustaq etdilər.



O çağda türklərin başında İl xaqan dururdu. Onun çoxlu oğlu vardı. Ancaq bu savaşda xaqanın bütün uşaqları öldü. **Xaqan Kayı (Kayan) adlı oğlunu** yenicə evləndirmişdi.

**İl xaqanın Doqquz Oguz adlı bir kürəkəni vardı; o da savaşdan salamat qurtardı.**

**Kayı ilə Doqquz Oguz əsir düşdülər.** On gün sonra ikisi də qarılarını yanlarına alıb atlanaraq qaçdılar. Türk yurduna döndülər. Düşmən əlindən qurtaran dəvələr, atlar, öküzlər, qoyunlar tapdılar. Oturub düşündülər: *«Dörd bir yan yağı ilə doludu. Dağların içində insan ayağı dəyməyən bir yer arayıb yurd salaq, orada oturaq».* - dedilər. Sürülərini alıb dağa doğru köç etdilər.

Gəldikləri yoldan başqa girişi olmayan bir məkana çatdılar. Bu tək yol da elə sıldırım qayalıqda yerləşirdi ki, istər dəvə, istər at güclə yeriyirdi, ayağını yanlış yerə basan yuvarlanıb paramparça olurdu.



Türklərin yerləşdikləri ölkədə axar sular, qaynaqlar, ovlaqlar, bulaqlar, cürbəcür bitkilər, dadlı meyvələr vardı. Belə yeri görüncə, onlar Allaha şükür etdilər. Qışda heyvanların ətini yedilər, dərisini geydilər, yazda südünü içdilər. Bu ölkəyə Ərgənəkon dedilər.

Zaman keçdi, çağlar axdı; Kayı ilə Doqquz Oguzun uşaqları oldu. Kayının lap çox övladı dünyaya gəldi. Doqquz Oguzun uşaqları nisbətən az idi. Kayıdan törəyənlərə Kayat, Doqquz Oğuzdan doğulanların bir bölümünə Doqquzlar, bir bölümünə də Türülkənlər dedilər. İllər illəri əvəzlədi, bu iki igidin törəmələri Ərgənəkonda qaldılar, çoxaldılar, çoxaldılar, hey çoxaldılar. Aradan dörd yüz il ötüşdü.

Dörd yüz ıl sonra nəsillər o qədər artdı ki, Ərgənəkona sığmadılar. Çarə tapmaq üçün qurultay topladılar. Dedilər: *«Atalarımızdan eşitdik, Ərgənəkonun xaricində geniş ölkələr, gözəl yurdlar varmış. Bizim yurdumuz da əskidən o yerlərdə imiş. Dağların arasını araşdırıb yol tapmaq, köçüb Ərgənəkona gedək. Ərgənəkondan kənarda kim bizə dost olsa, biz də onunla dost olaq, kim bizə düşmən olsa, biz də ona düşmən olaq».*

Türklər qurultayın qərarına əsasən Ərgənəkondan çıxmaq üçün yol aradılar, tapmadılar. O zaman bir dəmirçi dedi ki: *«Dağda bir dəmir mədəni var. Dəmiri əritsək, bəlkə dağ bizə keçid verər».*

Gedib dəmir mədənini gördülər. Dağın geniş yerinə bir qat odun, bir qat kömür dizdilər. Dağın altını, üstünü, yanını, yönünü odun-kömürlə doldurdular. Yetmiş dəridən yetmiş böyük körük düzəldib yetmiş yerə qoydular. Odun-kömürü odlayıb körüklədilər. Allahın yardımıyla dəmir dağ qızdı, əridi, yer açıldı. Bir yüklü dəvə çıxacaq qədər yol əmələ gəldi.



Sonra **göy yellikli bir Bozqurd çıxdı ortaya**; haradan gəldiyi bilinmədi. Bozqurd gəldi, Türkün önündə dikilib durdu. Hər kəs anladı ki, yolu o göstərəcək. Bozqurd yürüdü; ardından da Türk milləti irəlilədi. Və Türklər Bozqurdun öndərliyi ilə o müqəddəs ilin müqəddəs ayının müqəddəs günündə Ərgənəkondan çıxdılar.

**Türklər o günü, o saati əbədi yadda saxladılar. Bu müqəddəs gün Türklərin bayramına çevrildi. Hər il o gün böyük törən düzəldirlər. Bir parça dəmiri atəşdə qızdırırlar. Bu dəmiri öncə Türk xaqanı qısqacla tutub zindana qoyur, çəkiclə döyür. Sonra şöhrətli Türk bəyləri bir-bir gəlib eyni işi yerinə yetirərək təntənəni davam etdirirlər.**

*Bu törən zamanımızadək yaşadılıb. Sonuncu dəfə noyabrın 17-də Bakıda, "Gülüstan" sarayında Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında baş tutub. İlk olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çəkiclə dəmiri döyəcləyib.*

Ərgənəkondan çıxdıqları zaman Türklərin xaqanı **- Kayı Xan** soyundan gələn **Börtəçin (Bozqurd)** idi. Börtəçin bütün ellərə elçilər (xəbərçilər) göndərdi. Onlar Türklərin Ərgənəkondan çıxmağa hazırlaşdıqlarını bildirdilər. Qədimlərdə olduğu kimi, yenə bütün ellər Türklərin buyuruğu altına girdi. Kimi xaqan bilib Börtəçini xoşluqla qarşıladı, kimi də pis üz göstərib arxa çevirdi. Türkə qarşı çıxanlarla savaşıldı və hamı enildi. Türk dövləti dörd bir yana hakim kəsildi. Türklərin savaşda son zəfəri **21 marta təsadüf etdiyindən həmin gün hər il türk ellərində bayram kimi** qeyd olundu.